Azərbaycan Respublikası
Nazirlər Kabinetinin 2024-cü il
“ 29 ” dekabr tarixli
551 nömrəli Qərarı ilə
**təsdiq edilmişdir.**

## Kvotadan əlavə iş yerlərinin yaradılması

## QAYDASI

### 1. Ümumi müddəalar

1.1. Bu Qayda “Məşğulluq haqqında” Azərbaycan Respublikası Qanununun (bundan sonra – Qanun) 26.3-cü maddəsinə əsasən hazırlanmışdır və sosial müdafiəyə xüsusi ehtiyacı olan və işə düzəlməkdə çətinlik çəkən şəxslərin məşğulluğunun təmin olunması məqsədilə kvotadan əlavə iş yerlərinin yaradılması qaydasını müəyyən edir.

1.2. Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2005-ci il 22 noyabr tarixli 213 nömrəli Qərarı ilə təsdiq edilmiş “Kvota şamil edilməyən müəssisələrin siyahısı” ilə müəyyən edilmiş kvota şamil edilməyən müəssisələr istisna olmaqla, mülkiyyətindən və təşkilati-hüquqi formasından asılı olmayaraq, bütün idarə, müəssisə və təşkilatlar (bundan sonra – işəgötürənlər) kvotadan əlavə yaratdıqları iş yerləri üzrə əməkhaqqının maliyyələşdirilməsi ilə bağlı bu Qaydaya uyğun olaraq müraciət edə bilərlər.

1.3. İşəgötürənlər kvotadan əlavə yaratdıqları iş yerləri üzrə əməkhaqqının maliyyələşdirilməsi məqsədilə yeni iş yeri yaratmalı və Qanunun 18.3-cü maddəsinə uyğun olaraq həmin iş yeri ilə bağlı məlumatları vakansiya bankına təqdim etməlidirlər.

1.4. Hər bir işəgötürən üzrə kvotadan əlavə iş yerlərinin sayı işəgötürən üçün müəyyən edilmiş kvota miqdarınadək, lakin 15 (on beş) iş yerindən çox olmamalıdır.

1.5. Bu Qaydada istifadə olunan anlayışlar Qanun və “İşsizlikdən sığorta haqqında” Azərbaycan Respublikasının Qanunu ilə müəyyənləşdirilmiş mənaları ifadə edir.

### 2. Kvotadan əlavə iş yerlərinin maliyyələşdirilməsi

2.1. Kvotadan əlavə iş yerlərində Azərbaycan Respublikası Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin (bundan sonra – Nazirlik) tabeliyində Dövlət Məşğulluq Agentliyinin (bundan sonra – Agentlik) yerli qurumları və ya “DOST” mərkəzləri tərəfindən göndəriş verilmiş şəxslərlə 2 (iki) ildən az olmayan müddətə bağlanılan əmək müqaviləsi üzrə əməkhaqqı bu Qaydanın 2.2-ci bəndi nəzərə alınmaqla işsizlikdən sığorta vəsaiti hesabına maliyyələşdirilir.

2.2. Kvotadan əlavə iş yerləri üzrə əməkhaqqının işsizlikdən sığorta vəsaiti hesabına maliyyələşdirilən hissəsinin məbləği sosial müdafiəyə xüsusi ehtiyacı olan və işə düzəlməkdə çətinlik çəkən şəxslərin kateqoriyaları üzrə Nazirlik tərəfindən təsdiq edilən faiz dərəcələri tətbiq olunmaqla, Azərbaycan Respublikasının Dövlət Statistika Komitəsi tərəfindən əvvəlki il üçün müəyyən olunmuş ölkə üzrə ortaaylıq nominal əməkhaqqından çox olmamaq şərtilə işəgötürənlə Agentlik arasında bağlanılan Müqavilə (bundan sonra – Müqavilə) əsasında müəyyən edilir.

2.3. Kvotadan əlavə iş yerlərində əməkhaqqının maliyyələşdirilməsi üçün müraciət etmək istəyən işəgötürənlər “Elektron hökumət” və ya “e-sosial” portallarının mövcud autentifikasiya vasitələrindən istifadə etməklə Nazirliyin Mərkəzləşdirilmiş elektron informasiya sisteminin (bundan sonra – MEİS) “Əmək və məşğulluq”

altsistemində (bundan sonra – ƏMAS) bu Qaydanın əlavəsinə uyğun olaraq "Kvotadan əlavə iş yerləri üzrə əməkhaqqının maliyyələşdirilməsi üçün Ərizə"ni (bundan sonra – Ərizə) dolduraraq elektron imza ilə təsdiq edir.

2.4. Müraciət qeydə alındıqdan sonra Agentlik 15 (on beş) iş günü ərzində işəgötürənin bu Qaydanın 1.2-ci və 1.3-cü bəndlərinin tələblərinə uyğunluğunu araşdırır.

2.5. İşəgötürən bu Qaydanın 1.2-ci və 1.3-cü bəndləri ilə müəyyən edilmiş tələblərə uyğun olduqda, Agentlik tərəfindən ona bu barədə elektron bildiriş göndərilir və Ərizədə göstərilən kvotadan əlavə iş yerləri üzrə işə qəbul ediləcək işçilərin əməkhaqlarının bu Qaydanın 2.2-ci bəndi ilə göstərilən qaydada müəyyənləşdirilən hissəsinin işsizlikdən sığorta vəsaiti hesabına ödənilməsinə dair Müqavilə imzalanır.

2.6. Kvotadan əlavə iş yerlərinə işçilərin işə qəbulu Agentliyin yerli qurumlarının və ya "DOST" mərkəzlərinin göndərişi ilə həyata keçirilir. İşəgötürən ƏMAS tərəfindən elektron qaydada göndəriş təqdim edildiyi gündən ən geci 5 (beş) iş günü müddətində şəxsləri vakansiyaya uyğun işlə təmin etməsi və ya vakansiya üzrə işə qəbulundan imtina etməsi ilə bağlı qərarı barədə göndərişdə müvafiq qeydlər aparır və bu barədə məlumatı ƏMAS-a daxil edərək, gücləndirilmiş elektron imzası ilə təsdiqləyir.

2.7. İşəgötürənlərin kvotadan əlavə iş yerləri üzrə işə qəbul etdikləri işçilərlə bağlanılmış əmək müqaviləsi barədə məlumatlar Agentlik tərəfindən ƏMAS üzərindən yoxlanılır.

2.8. İşçinin əməkhaqqının işsizlikdən sığorta vəsaiti hesabına maliyyələşdirilən hissəsi kvotadan əlavə iş yerləri üzrə işçi ilə işəgötürən arasında bağlanılmış əmək müqaviləsinin hüquqi qüvvəyə mindiyi aydan başlayaraq, Müqavilədə nəzərdə tutulmuş müddətdə və məbləğdə Agentlik tərəfindən növbəti ayın 5-dək işəgötürənin hesabına köçürülür.

2.9. Müqavilənin qüvvədə olduğu müddət ərzində kvotadan əlavə iş yerlərinə qəbul olunmuş işçi ilə işəgötürən arasında əmək müqaviləsinə xitam verildikdə, Agentliyin yerli qurumları və ya "DOST" mərkəzləri tərəfindən həmin iş yeri üzrə yeni göndəriş rəsmiləşdirilir. Yeni işçi təyin edilən zaman həmin iş yeri üzrə əvvəlki işçinin əməkhaqqının maliyyələşdirilməsi dövrü nəzərə alınır.

## 3. Kvotadan əlavə iş yerlərinə dair standartlar

3.1. Kvotadan əlavə iş yerləri:

3.1.1. işəgötürənin vəsaiti, yaxud qanunla qadağan edilməyən digər mənbələr hesabına yaradıla bilər;

3.1.2. işəgötürənlərdə mövcud olan daimi vakansiyalar kvotadan əlavə iş yerləri hesab edilmir və əvvəldən işləyən işçilərin işdən azad edilməsi yolu ilə yaradıla bilməz.

3.2. Kvotadan əlavə yaradılan iş yerlərinin sayı həmin işəgötürən üzrə Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2005-ci il 22 noyabr tarixli 213 nömrəli Qərarı ilə müəyyən edilmiş kvota iş yerlərinin sayına təsir göstərmir.

## 4. Kvotadan əlavə iş yerlərinin monitorinqi

4.1. Agentlik Müqavilənin qüvvədə olduğu müddət ərzində ildə bir dəfədən az olmayaraq kvotadan əlavə yaradılmış iş yerlərinin monitorinqini aparır.

4.2. İşəgötürənlərin kvotadan əlavə iş yerləri üzrə işə qəbul etdikləri işçilər və onlara ödənilən əməkhaqqı barədə məlumatlar ƏMAS üzərindən yoxlanılır və məcburi dövlət sosial sığortası (işsizlikdən sığorta) üzrə rüblük hesabatla üzləşdirilir.

4.3. İşəgötürən tərəfindən işsizlikdən sığorta vəsaiti hesabına artıq ödənilmiş əməkhaqları aşkar edildiyi halda, həmin vəsaitin geri qaytarılması işəgötürəndən tələb olunur və bu vəsait geri qaytarılmadıqda həmin işəgötürənlə bağlanılmış Müqaviləyə xitam verilir. Bu sahədə Agentliklə işəgötürən arasında mübahisələrə məhkəmə qaydasında baxılır.

**“Kvotadan əlavə iş yerlərinin yaradılması Qaydası”na**

**əlavə**

**Kvotadan əlavə iş yerləri üzrə əməkhaqqının maliyyələşdirilməsi üçün**

**ƏRİZƏ**

| | |
|---|---|
| **İşəgötürən barədə məlumat** | |
| Vergi ödəyicisinin eyniləşdirmə nömrəsi | |
| İşəgötürənin adı* | |
| Təşkilati-hüquqi forması* | |
| Mülkiyyət növü (dövlət, özəl, bələdiyyə)* | |
| İqtisadi fəaliyyət növü* | |
| Ünvanı (şəhər/rayon, küçə)* | |
| Elektron poçt ünvanı (olduğu halda) | |
| Telefonu | |
| **Vakansiya üzrə məlumat** | |
| Vakansiyanın ştat kodu | |

*MEİS-dən əldə edilən məlumatlar